# Mərkəzi Elmi Kitabxanada Zəfər Günü qeyd edilib



***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) Zəfər Günü qeyd edilib.***

Öncə MEK rəhbərliyi İkinci Fəxri xiyabanı ziyarət ediblər. Burada Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi yad edilib, məzarları üzərlərinə gül dəstələri düzülüb.

Milli Məclisin deputatları, elm adamları, şəhid ailələri, müharibənin canlı iştirakçıları, qazilər və digər qonaqların iştirakı ilə Şanlı Qələbəmizin bir ili münasibətilə MEK-də keçirilən "Zəfər memarları Mərkəzi Elmi Kitabxanada əbədi yaşayacaq" adlı tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan edən MEK-in baş direktoru, professor Məmməd Əliyev dahi Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində xalqımızın çoxəsrlik tarixinin ən şanlı səhifəsi yazıldı. Vətən müharibəsi təxminən 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

"Hər kəs yumruq kimi birləşib Ali Baş Komandanımızın dediyi kimi, "dəmir yumruq"larını bütün sahələrdə düşmənin başına endirmək əzmində idi. Ziyalılar, yaradıcı insanlar, hərbi ekspertlər fikir və düşüncələrini bölüşür, xalqı məlumatlandırmağa çalışırdı. Bu müharibə elmi məqalə, esse, şeir, hekayə, dastanlar yazılmağına zəmin yaratdı. Kitabxana olaraq bizim missiyamız xalqın yaratdığı intellektual milli sərvəti toplamaq, qorumaq və gələcək nəsillərə ötürməkdir. AMEA Mərkəzi Elmi Kitabxanasının da möhtəşəm qələbəyə layiqli töhfəsi, bir neçə ay öncə fəaliyyətə başlayan, Azərbaycan kitabxana sistemində bir ilk olan "Qarabağ müharibəsi qəhrəmanları" fondunun istifadəyə verilməsi, həmçinin yenicə işıq üzü görən "Qırx dörd günün salnaməsi: Vətən müharibəsi" adlı biblioqrafik göstərici oldu.

Sonra AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Ermənistan üzərində qazanılan möhtəşəm Qələbə sayəsində tarixi yurd yerlərimizə qayıdışımza toxunaraq bildirdi ki, Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqları dəyərləndirən Prezident cənab İlham Əliyevin postmüharibə dövrü üçün müəyyənləşdirdiyi hədəflər bu gün uğurla reallaşmaqdadır.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları AMEA-nın müxbir üzvü, Qafqazşünaslıq İnstitutunun direktoru Musa Qasımlı və yazıçı Aqil Abbas çıxış edərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti ilə işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdış üçün bütün zəruri tədbirlərin görüldüyünü bildirdilər. Natiqlər Qarabağda, xüsusən də Şuşada aparılan tikinti, quruculuq işləri, Füzuli Beynəlxalq Hava Limanının açılışı, Zəngəzur dəhlizinin, Zəngilan rayonunda "Dost Aqropark"ın təməlinin qoyulmasını aparılan böyük missiyanın nəticəsi olaraq vurğuladılar.

***Təqdim etdi:***
***Anar ƏLİ, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 5 noyabr.- S.10.